**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

"_____" __________________2014-cü il №________________

**ƏMR № 290**

**Bakı şəhəri** **15 sentyabr 2014-cü il**

"Məişət zorakılığına məruz qalmış şəxslərə tibbi psixoloji yardımın göstərilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə Ucar və Ucar ətrafı rayonlarda təlimlərin keçirilməsi barədə"

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanununun həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 1.2.8-1, 1.2.8-2 və 1.3.3-1 bəndlərinin icrası məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. AR-nın Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə "Ümidli Gələcək" tərəfindən Ucar şəhərində icma əsaslı Məişət zorakılığının qurbanı olmuş uşaq və gənclər üçün yaradılacaq reabilitasiya mərkəzinin işçi heyəti üçün uşaq zorakılığın qarşısının alınması üzrə 3-günlük təlimçilər üçün təlim keçirilsin.
2. Ucar və Ucar ətrafı rayonlarda (Kürdəmir, Ağdaş, Göyçay, Yevlax və Zərdab) müvafiq dövlət qurumlarının, o cümlədən, təhsil və səhiyyə ocaqlarının əməkdaşları üçün həmin mövzuda 2 günlük təlim keçirilsin.
3. Əmrin 1-ci və 2-ci bəndlərində qeyd edilən təlimlərin keçirilməsi üçün zorakılığa məruz qalmış uşaq və ailələrlə sosial-tibbi-psixoloji işin aparılmasına dair milli və beynəlxalq təşkilatların metodik tövsiyələrdən ibarət xüsusi toplu və maarifləndirici materiallar (buklet, plakat, videoçarx) hazırlansın.
4. Təlimlərin təşkili və keçirilməsi Səhiyyə siyasəti və islahatlar şöbəsinin meneceri Nabil Seyidova tapşırılsın.
5. Baş mühasib Abuzər Məmmədova qeyd olunan təlimlərin təşkili və keçirilməsi üçün əmrə əlavə edilən xərclərin smetası üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsinin təmin edilməsi tapşırılsın.
5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

K. S.
nın başlatması
11.09.2014

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**cənab Ceyhun Məmmədova**

## MƏLUMAT

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanununun həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 1.2.8-1, 1.2.8-2 və 1.3.3 bəndlərinin icrası ilə bağlı Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən məişət zorakılığına məruz qalmış şəxslərə tibbi-psixoloji yardımın göstərilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə "Ümidli gələcək" gənclər təşkilatı (yerli qeyri-hökumət təşkilatı) ilə əməkdaşlıqda maarifləndirmə tədbirləri, təlimlərin keçirilməsi və maarifləndirici, habelə metodiki çap materialları və video çarxların hazırlanması təklif olunur. Hal-hazırda "Ümidli Gələcək" tərəfindən ölkənin AR-nın Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə Aran regionun Ucar şəhərində icma əsaslı Məişət zorakılığının qurbanı olmuş uşaq və gənclər üçün reabilitasiya mərkəzinin yaradılması nəzərdə tutulur. İSİM və "Ümidli Gələcək" arasında əməkdaşlıq çərçivəsində İSİM tərəfindən həmin yeni yaradılacaq mərkəzin əməkdaşları, habelə Aran regionuna daxil olan rayonların, o cümlədən, Ucar, Kürdəmir, Göyçay, Zərdab, Ağdaş və Yevlax rayonlarının aidiyyəti dövlət qurumları, təhsil və səhiyyə müəssisələrinin əməkdaşları üçün müvafiq mövzularda metodik vəsaitlərin hazırlanması, hazırlanacaq metodik tövsiyələr əsasında təlimlərin təşkili, habelə geniş əhali arasında məişət zorakılığının qarşısının alınmasına yönəlmiş qabaqlayıcı maarifləndirmə tədbirlərinin keçirilməsi məqsədəuyğun hesab edilir.

Həmin tədbirlərin həyata keçirilməsi üzrə layihə təklifi əlavə edilir.

**Səhiyyə Siyasəti və İslahatlar**
**şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən** **Nabil Seyidov**
11.09.2014

## Məişət zorakılığına məruz qalmış şəxslərə tibbi-psixoloji yardımın göstərilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə "Ümidli gələcək" gənclər təşkilatı (yerli qeyri-hökumət təşkilatı) ilə əməkdaşlıq layihəsi

| № | Tədbirin adı | Gözlənilən nəticələr | Tarix (2014) |
|---|---|---|---|
| 1. | Ucar rayonunda "Ümidli gələcək" gənclər təşkilatı tərəfindən yaradılacaq Məişət Zorakılığının qurbanı olan uşaq və gənclər üçün Reabilitasiya mərkəzinin işçi heyətinin bilik, bacarıq və vərdişlərə yiyələndirmək məqsədilə təlimlərin keçirilməsi | Yeni yaradılacaq mərkəzin işçi heyəti (psixoloq, sosial işçi, hüquqşünas) silsilə təlimlər vasitəsilə təlimləndiriləcək | Oktyabr – Dekabr |
| 2. | Ucar rayonunda müvafiq dövlət qurumlarının, o cümlədən, təhsil və səhiyyə ocaqlarının əməkdaşları üçün 2 günlük təlimin keçirilməsi | 25 nəfər məişət zorakılığı, uşaq hüquqları, zorakılığın önlənməsi, zorakılıq qurbanları ilə sosial-tibbi-psixoloji işin qurulmasına dair mühüm bilik və bacarıqlar əldə edəcək | Noyabr |
| 3. | Ucar ətrafı rayonlarda (Kürdəmir, Ağdaş, Göyçay, Yevlax və Zərdab) müvafiq dövlət qurumlarının, o cümlədən, təhsil və səhiyyə ocaqlarının əməkdaşları üçün 2 günlük təlimlərin keçirilməsi | Təlimlərdə iştirakçı olaraq hər rayonda 30 nəfər olmaqla, uşaq problemləri ilə məşğul olan müvafiq dövlət qurumlarının nümayəndələri, yerli mütəxəssislər, məktəb psixoloqları, poliklinika həkimləri, yerli QHT üzvləri və valideyn birliklərinin nümayəndələri məişət zorakılığı, uşaq hüquqları, zorakılığın önlənməsi, zorakılıq qurbanları ilə sosial-tibbi-psixoloji işin qurulmasına dair mühüm bilik və bacarıqlar əldə edəcək | Noyabr |
| 4. | "Ümidli Gələcək" ilə razılaşdırılmış mətn əsasında uşaqlara qarşı zorakılığın önlənməsinə dair buklet və plakatın hazırlanması | 1 növ 5000 ədəd buklet.<br>1 növ 500 ədəd A2 plakat. | Oktyabr |
| 5. | "Ümidli Gələcək" ilə razılaşdırılmış ssenari əsasında uşaqlara qarşı zorakılığın profilaktikasına yönəlmiş sosial video çarxın hazırlanması və regionlarda yayımlanması | 30 saniyəlik sosial video çarx hazırlanacaq.<br>Təlimlər zamanı sosial çarx nümayiş etdiriləcək.<br>Videoçarx regional televiziya kanalları vasitəsi ilə yayımlanacaq. | |
| 6. | Zorakılığa məruz qalmış uşaq və ailələrlə sosial-tibbi-psixoloji işin aparılmasına dair milli və beynəlxalq təşkilatların metodik tövsiyələrdən ibarət xüsusi toplunun hazırlanması, çapı və yayılması. | Metodik tövsiyələrdən ibarət xüsusi toplu hazırlanacaq və uşaqlarla işləyən dövlət qurumları və QHT-lərə paylanacaq. | Oktyabr-Dekabr |